# AZƏRBAYCAN NEFTÇI GEOLOQLARI CƏMIYYƏTI

# 2012-CI IL ÜÇÜN HESABAT

Azərbaycan Neftçi Geoloqları Cəmiyyəti 2012-ci il ərzində 219 aktiv üzvü olub.

***Büro iclasları:*** Büro iclaslarında əsas müzakirə olunan məsələlər, 2012-ci ilin aprel ayında ANGC XVII Tələbə Elmi Konfransını keçirilməsi ilə əlaqədar hazırlıq işləri, 3-5 oktyabrda keçirilən konfransına hazırlıq işləri, 3-7 İyun tarixində Kopenhagen şəhərində keçiriləcək ANGC-nin AYAMA-nın İllik Kofrans və Sərgisində iştirakı, 3-5 oktyabrda keçirilən konfransın nəticələri, ANGC-nin saytının yenilənməsi, ANGC-nin və EAGE-nin yerli bölməsinin təşkilatçılığı ilə tələbələr üçün seminarın keçirilməsi təklifi, ANGC-nin 20 illik Yubileyi və bununla əlaqədar təşkilat komitəsinin yaradılması, Beynəlxalq Tələbə Forumu və bununla əlaqədar təşkilat komitəsinin yaradılması, tələbələr üçün seminarın keçirilməsi, 2013-cü ilin iş proqramının təkmilləşdirilməsi olmuşdur.

***Aylıq iclaslar:*** Aylıq iclaslarda müzakirə olunan əsas məsələlər 2011-ci il ərzində ANGC-nin fəaliyyəti haqqında, Karbohidrogen Resurslarının Aşkarlanmasına Vahid Yanaşma" adlı Beynəlxalq konfransa hazırlıq,ANGC-nin prezidentinın və Aylıq bülletenin redaktorunun seçilməsi 3-5 oktyabr Bakıda keçirilən konfransın hesabatı, ANGC-nin yenilənmiş saytının təqdimatı, ANGC-nin illik hesabatı, ANGC-nin 2013-cü ilin ştat cədvəli mələlələr müzakirə olunmuşdur. 26.12.12 tarixində keçirilən aylıq görüş zamanı Dr.A.İ.Əliyevin "Нефтегазоносностъ Болъших Глубин" kitabının təqdimatı da olmuşdur.

***Rəhbər komitəsinin iclasları:*** Rəhbər komitəsində müzakirə olunan əsas məsələlər 3-5 oktyabr, 2012-ci ildə Bakıda keçiriləcək Beynəlxalq konfransın təşkilati məsələləri əlaqədar olaraq, konfrans üçün təşkilat komitəsinin müəyyən olunması, konfransın keçiriləcəyi yerin müəyyən olunması, konfrans bölmələrin müəyyən olunması, proqramın hazırlanması, konfrans zamanı çöl ekskursiyalarının, tələbələr üçün seminarların təşkil olunması və.s idilər.

***Seminarlar:*** Bundan əlavə tələbələr və mütəxəsislər üçün 4 seminar, 2 çöl ekskursiyası (3-5 oktyabr Bakıda keçirilən konfrans zamanı) əlavə 3 seminar keçirilmişdir. Tələbələr üçün bir günlük seminarı Villiam Abriel (Dünya Kəşfiyyat Geofizika Cəmiyyətinin I vitse-presidenti) "Reservoir Geophysics: Applications" və Patrik Konnolinin (Dünya Kəşfiyyatçı Geofiziklər Cəmiyyətinin (SEG) nümayəndəsi) seçilmiş mühazirələrindən "Robust and Inclusive Workflows for Seismic Reservoir Characterization" təqdim olunmuşdur. Bunlar tələbələrin böyük diqqət və həvəslə iştirak etdikləri seminarlardan idi.

Konfrans müddətində tələbələr üçün bir günlük seminar Bakıdan kənarda yerləşən Qala Etno Ekoloji Mərkəzində baş tutdu. Tələbələr üçün hazırlanmış ilk seminarı Dünya Kəşfiyyat Geofizika Assosaiyasının I vitse-presidenti Villiam Abriel təqdim etdi. Hər kəsdə böyük maraq doğurmuş və müzakirələrlə başa çatmış seminar geofizikanınn bir hissəsi olan seyismika və eyni zamanda dünyada olan yeniliklər

sənayenin müasir problemləri və.s barəsinda idi. Seminar BP-nin məsul işçisi ANGC-nin aktiv üzvi olan Həsən Əsgərovun təqdimatı ilə davam etdi. Təqdimatda Cənubi Xəzər çökəkliyinin bu günə məlum olan geoloji quruluşu və BP-nin operatoru olduğu strukturların seyismik vəziyyəti yer almışdı.

Konfrans günlərində eyni zamanda iki istiqamətdə tələbələr və xarici mütəxəsislər üçün keçirilən çöl ekskursiyaları BP-nin viste-prezidenti Qreq Raylinin başçılığı ilə Qırməki dərəsinə və Beynəlxalq GeoLab-n müdiri Zöhran Şixlinskinin başçılığı ilə Perekүşkül palçıq vulkanlarına və geoloji açılışlara təşkil olunmuşdu.

Tələbələr üçün növbəti seminar ANGC-nin və EAGE-nin yerli bölməsinin təşkilatçılığı ilə keçirilmişdir. 06.12.12 tarixində ANGC-nin aylıq görüşü zamanı "Создание геологической 3D модели" Ağarıza Hacıyev tərəfindən (Neftqazelmitədqiqatlayihə insitutu) və "Литофациальное моделирование месторождений Умбаки и Калмаз" Fidan Aslanzadə tərəfindən (Neftqazelmitədqiqatlayihə insitutu) təqdim olunmuşdu.

Azərbaycan Neftçi Geoloqlar Cəmiyyəti, AYAMA-nın Azərbaycan bölməsinin və BP Azərbaycanın birgə təşkilatçılığı ilə 11.12.12 tarixində tələbələr və mütəxəsislər üçün bir günlük kurs təşkil olunmuşdur. Seminar BP-nin İçəri şəhərdə yerləşən binasında baş tutdu və Norveçdən xüsusi dəvət almış Olav İnge Barkved tərəfindən "Seismic Surveillance for Reservoir Delivery" mövzusu üzrə EET6 kusru uğurla başa çatmışdı.

***Azərbaycan Neftçi Geoloqları Cəmiyyətinin XVII Tələbə Elmi Konfransı*** -Aprel ayının 7-də 2012-ci ildə ARDNŞ-ın Geofizika və Geologiya İdarəsində Azərbaycan Neftçi Geoloqları Cəmiyyətinin XVII Tələbə Elmi Konfransı keçirilmişdir. Çox sayda tələbə arasından seçilən 30 tələbə konfransda məruzə ilə çıxış etmişdir. Məruzələrin olduqca maraqlı olduğunu və tələbələrin sual-cavabda yaxşı iştirakını nəzərə alan münsiflər iki tələbəni I yerə layiq görüblər. Yer tutan tələbələr ADNA və BDU-nın tələbələri idilər, konfransda yaxşı çıxış edən bütün tələbələrə, eləcə də, I kurs tələbələrinin hər birinə ARDNŞ, Total, Statoil, RWE Dea, Bank of Baku və ANGC tərəfindən hədiyyələr təqdim edilib. Bundan başqa I, II və III yerləri tutan tələbələrin elmi rəhbərlərinə də Statoil şirkətindən hədiyyələr verilib.

***ANGC-nin Beynalxalq konfransda iştirakı:*** Azərbaycan Neftçi Geoloqları Cəmiyyəti 03-07 iyun 2012-ci ildə Avropa Yer elmləri Alimləri və Mühəndisləri Assosiasiyasının təşkil etdiyi Kopenhagendə keçirilən 74-cü Konfrans və Sərgisində öz sərgisiylə iştirak etmişdir.Tələbələr və mütəxəssislərin inkşafı naminə həyata keçirdiyi layihələrə görə ANGC ilə birgə fəaliyyət göstərən AYAMA-nın Azərbaycan bölməsi xüsusi diqqət çəkmiş və 18 bölmə arasından 2-ci yerə layiq görülmüşdür.

***Beynəlxalq Konfrans:*** ANGC-nin 2012-ci il üçün növbəti uğura səbəb olan layihəsi 3-5 oktyabr, 2012 tarixində Bakıda Hilton otelində Beynəlxalq "Karbohidrogen resurslarının aşkarlanmasına kompleks yanaşma" mövzusunda Azərbaycan Neftçi Geoloqlar Cəmiyyəti(ANGC), Azərbaycan Milli Geofizika Komitəsi, Avropa Yer Elmleri ve Mühəndisləri Assosaiyasinin(EAGE) Azərbaycandakı bölməsinin birgə təşkilatçılığı ilə, Amerika Neftçi Geoloqlar Cəmiyyəti (AAPG), ABŞ-ın Kəşfiyyatçı

Geofiziklər Cəmiyyəti (SEG) və Rusiya Federasiyasının Quyu Tədqiqatları Assosiasiyası (АИС) dəstəyi ilə həyata keçirildi. Konfransın keçirilməsi bir çox yerli və xarici şirkətlərin dəstəyi ilə həyata keçirildi. Birinci dəstəkçi şirkətlər ARDNŞ, BP və Statoil, dəstəkçi şirkətlər isə Schlumberger, OMV, TOTAL, NobelOil, GDFSeuz, RWE şirkətləri idi. Azərbaycanda Geoloqlar və Geofizka təşkilatlarının birgə əməkdaşlığı Bakıda keçirilən bu konfransın uğurla keçirilməsinə müsbət təsirini göstərdi. Faktiki olaraq bu konfrans geofiziklərin sayla VIII Beynəlaxalq konfransı Geoloqların isə "Xəzər və Qara dəniz Regionunda Neft Geologiyasında Karbohidrogen Potensialı" adlı IV Beynəlxalq konfransı idi. Konfransı Azərbaycan Respublikasının Neft Sənaye naziri Natiq Əliyev açaraq Azərbaycanda neft və qaz sənayesinin inkişafı və yaxın gələcəkdə planlaşdıran işlərdən ətraflı məlumat verdi. Nazirin maraqlı açılış-məruzəsindən sonra konfransda salamlama məqsədi ilə ardıcıllıqla tribunaya Vlasta Dvorakova (AAPG-nin Avropa Regionun Prezidenti), Villiam Abriel (ABŞ-ın Kəşfiyyatçı Geofiziklər Cəmiyyətinin (SEG) I vitse-prezidenti) və Roald van Borselen (Avropa Yer Elmleri ve Mühəndisləri Assosaiyasinin(EAGE) nümayəndəsi) çıxdılar.

Konfransda 270 yaxın yer elmleri alimləri, mütəxəsislər və tələbələr iştirak edirdilər. bunlardan da 70 nəfəri xaricdən gəlmiş mütəxəsislər və tələbələr idilər o cümlədən, Azərbaycanın Elmi və Sənaye təşkilatlarının nümayəndələri iştirak edirdilər. 2 günlük konfrans müddətində 70 nəfər şifahi və stend məruzədə çıxış etdilər. Xarici mütəxəsislər və tələbələr Bolqariya, Böyük Britaniya, Almaniya, Gürcüstan, Hindistan, İran, Qazağıstan, Norveç, Rusiya, Rumuniya, Avstirya, ABŞ, Ukrayna və Fransa kimi ölkələrin nüfuzlu şirkətləri və universitetlərinin təmsilçiləri idilər.

**2013-cü il üçün planlaşdırılan işlər**: 2013-cü ildə ANGC öz fəaliyyətini illik iş proqramı üzərində aparmağı planlaşdırır. Proqram Rəhbər Komitəsinin 30.01.13 tarixindəki iclasında geniş müzakirə olunaraq qəbul olunmuşdur. Əsas həyata keçirilməsi planlaşdırılan tədbirlərdən: Avropa Yer Elmləri Asosasiyasının (EAGE) təşkil etdiyi və Londonda 10-13 iyun, 2013-cü ildə keçiriləcək 75-ci Beynəlxalq sərgisində iştirak, Dünya Kəşfiyyat Geofizika Cəmiyyətinin(SEG) təşkil etdiyi aprel ayında keçiriləcək IV Beynəlxalq Yer Elmləri Konfransı üçün müəyyən sayda məruzəçi tələbələrin göndərilməsi, ANGC-nin 20 illik yubileyinin və Beynəlxalq Tələbə Forumunun keçirilməsi və.s kimi tədbirlər yer alır.